

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

8 iyun 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 22 (3636)

**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

*Heydər Əliyev,*
*ümummilli lider*

## Rəsmi xronika

***Azərbaycan Prezidenti İlham Əliyev iyunun 2-də Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin strukturu"nda dəyişiklik edilməsi haqqında fərman imzalayıb.***

***Dövlətimizin başçısı iyunun 5-də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri iyunun 6-da Azərbaycan Respublikasında qida təhlükəsizliyi sahəsində fərqlənən bir qrup şəxsin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

# QURUCULUQ ƏZMİ, MÜDAFİƏ QÜDRƏTİ

## Qarabağ və Şərqi Zəngəzurun bərpası, ordumuzun hərbi gücünün artırılması prioritetdir



Prezident İlham Əliyev bir müddət öncə Salyan şəhərində Azərbaycan Televiziyasına müsahibəsində büdcəyə 3 milyard manat səviyyəsində əlavələrin olunacağını, eyni zamanda bu xərclərin əsasən Qarabağ və Şərqi Zəngəzurun qurulmasına istifadə olunacağını bildirmişdi. Çıxışında büdcə siyasətimizin iki əsas çağırışının olduğunu vurğulayan Ali Baş Komandan 2-ci çağırışın məhz hərbi xərclər təşkil edəcəyi mesajını da vermişdi.

İyunun 2-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, Əmək və sosial siyasət komitələrinin birgə iclası zamanı gündəlikdə duran məsələlər müzakirə edilərkən ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi üçün əlavə 1 milyard 105 milyon manat vəsaitin tələb olunduğu bildirilib.

Cari ilin dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 3 milyard manat vəsait nəzərdə tutulub. Böyük qayıdışa dair I Dövlət Proqramı ilə qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün 2 milyard 260 milyon əlavə vəsaitin cəlb edilməsinə zərurət yaranıb. Beləliklə, dövlət büdcəsində Qarabağ və Şərqi Zəngəzurun bərpası işlərinə 2023-cü il üzrə 5 milyard 260 milyon manat vəsait ayrılacaq.

Vətən müharibəsindən ötən iki il yarım müddət ərzində Azərbaycan dövləti qayıdışı həyata keçirmək üçün işğaldan azad edilən ərazilərdə bərpa və quruculuq prosesləri ilə bağlı mühüm işlər görüb. Hazırda bu ərazilərdə iki beynəlxalq hava limanı tikilərək istifadəyə verilib – Füzuli və Zəngilan hava limanları. Laçın Beynəlxalq Hava Limanının isə sürətlə tikintisi aparılır. Qarabağ və Şərqi Zəngəzurda yol, enerji, su və digər kommunikasiya layihələri uğurla həyata keçirilir.

Əsas hədəf Böyük qayıdışa start verilməsi, yüzlərlə keçmiş məcburi köçkün ailəsinin Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış kəndlərinə və Laçın şəhərinə qaytarılmasıdır.

Qarabağ və Şərqi Zəngəzuru azadlığına qovuşduran rəşadətli Azərbaycan Ordusunun hərbi qüdrətini artırmaq, onun arsenalını ən müasir silahlarla zənginləşdirmək, eyni zamanda torpaqlarımızın etibarlı müdafiəsi istiqamətində də dövlətimiz mühüm işlər görür.

"Müharibədən sonrakı iki il yarım ərzində də ordu quruculuğu məsələlərinə çox böyük diqqət göstərilib. Tam əminliklə deyə bilərəm ki, bugünki Azərbaycan Ordusu 2020-ci ildə zəfər çalmış eyni Azərbaycan Ordusundan qat-qat güclüdür. Ancaq, yenə də demək istəyirəm, biz hər bir vəziyyətə hər an hazır olmalıyıq",- deyən dövlətimizin başçısı bildirib ki, ordu quruculuğu və müdafiə potensialımızla bağlı olan bütün məsələlər əsas vəzifədir.

Bütün bunlar isə bir daha göstərir ki, Azərbaycan dövləti gün keçdikcə həm hərbi qüdrətini artırır, həm də işğaldan azad edilən ərazilərdə sürətli bərpa quruculuq işləri həyata keçirərək Böyük qayıdışa addımbaaddım yaxınlaşır.

# DİN-də AŞPA-nın HƏMMƏRUZƏÇİLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB



Respublikanın daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov iyunun 5-də Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçiləri Yan Lidel-Qreynger və xanım Liz Kristofersen ilə görüşüb.

Daxili İşlər Nazirliyi ilə Avropa Şurası arasında sıx və işgüzar əməkdaşlıq əlaqələrinin mövcudluğundan danışan nazir V.Eyvazov qeyd edib ki, bu əlaqələr çərçivəsində insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində həyata keçirilən tədbirlər xüsusi əhəmiyyət daşıyır.

Bildirilib ki, daxili işlər orqanları əməkdaşlarının peşəkarlığının daha da artırılması, beynəlxalq təcrübənin öyrənilməsi sahəsində görülən işlər sistemli şəkildə həyata keçirilir.

Polis orqanlarının müvəqqəti saxlama yerlərinin müasir standartlara uyğun təşkil edildiyi, hökumət, eləcə də qeyri-hökumət təşkilatlarından olan müşahidəçilərin müvəqqəti saxlama yerlərində sərbəst və məhdudiyyətsiz monitorinq keçirmələrinə lazımi şərait yaradıldığı diqqətə çatdırılıb.

Həmməruzəçilər insan hüquq və azadlıqlarının qorunması sahəsində görülən işlər barədə verdiyi əhatəli məlumata görə cənab Vilayət Eyvazova minnətdarlıqlarını ifadə ediblər.

Görüşdə bir sıra digər məsələlər də müzakirə olunub, daxili işlər naziri qonaqları maraqlandıran sualları ətraflı cavablandırıb.

## VƏTƏNDAŞ QƏBULU

İsmayıllı, Ağsu, Göyçay, Qobustan, Şamaxı



***Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il iyun ayının 13-də İsmayıllı Rayon Polis Şöbəsinin inzibati binasında Ağsu, İsmayıllı, Göyçay, Qobustan, Şamaxı şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.***

***Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 12.06.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.***

***Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.***

# Onları bütün Azərbaycan tanıyır

## Şəhidlər xatirələrdə, yaddaşlarda və tarixdə əbədi yaşayır



44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan hərbi qulluqçularımızın siyahısında çavuş Fətəliyev Emil Mayis oğlunun da adı var. O, 1992-ci il oktyabrın 30-da Qax rayonunun Qorağan kəndində doğulub.

Emil şəhid Səfa Rəhimov adına Qorağan kənd tam orta məktəbində təhsil alıb. 2010-cu ilin oktyabr ayında Emil müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 16076 saylı hərbi hissəsində hərbi xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2012-ci ilin aprel ayında ehtiyata buraxılıb.

2016-cı ilin may ayının 7-də öz arzusu ilə Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Müddətdən artıq həqiqi hərbi xidməti 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin tərkibində keçib. Xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunun AQS-17 qumbaraatan yarımqrupunun heyət nəfəri, istehkamçı yarımqrupunun radiotelefonçu-istehkamçısı, istehkamçı yarımqrupunun heyvan təlimçisi-istehkamçısı və istehkamçı yarımqrupunun istehkamçı-radiotelefonçusu vəzifələrinə təyin edilərək nümunəvi xidməti ilə komandanlığın etimadını doğruldub. Vətən müharibəsi iştirakçısı, 16077 saylı hərbi hissənin ayrı yerləşən xüsusi təyinatlı dəstəsinin xüsusi təyinatlı bölməsinin komandiri kapitan Xəqani Məmmədov Emilin xidmət və döyüş yolu barədə suallarımı cavablandırdı: “Emili 2016-cı ildən tanıyırdım, o vaxt 17072 saylı hərbi hissədə xidmət edirdim, komandiri olduğum atəş təminatı qrupuna gəldiyi ilk gündən xidmətə can yandırıb. İntizamlı, yüksək döyüş hazırlığına malik hərbi qulluqçu olub. Hərbi kollektivdə tez ünsiyyət quran idi, yoldaşlarından köməyini heç vaxt əsirgəməzdi. O, dəstədən bir nəfər hərbi qulluqçu ilə birlikdə Azərbaycan Respublikasının Minatəmizləmə Dövlət Agentliyinin istehkamçı kursuna seçilmişdi. Kursu müvəffəqiyyətlə başa vurduqdan sonra dəstənin istehkamçı yarımqrupunda xidmətini davam etdirdi.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başladıqda Emil ilk gündən döyüşlərə qatılıb. Onun döyüş yolu Kəlbəcər (Murovdağ silsiləsinin bir sıra yüksəklikləri istiqamətində), Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının ərazilərindən keçib. Müdafiə Nazirliyinin və Qoşunların xüsusi təyinatlıları ilə birgə “F” dəstəsinin tərkibində vuruşub. O, istehkamçı kimi döyüş tapşırıqlarını yerinə yetirib. Ön cəbhənin qeyd etdiyim istiqamətlərində torpaqlarımızın işğaldan azad olunmasına öz layiqli töhfəsini verib.

Son döyüşündən əvvəl mənimlə söhbət edərkən böyrəklərinin möhkəm ağrıdığını dedi, soyuq hava şəraiti onun sağlamlığına mənfi təsir göstərmişdi. Mən təklif etdim ki, təxliyyə olunsun, müalicə üçün hospitala getsin. Bildirdi ki, yox, hələ gücüm var, bu tapşırığa da gedim, sonra səhhətimin vəziyyətinə baxaram.

Hücuma hazırlaşdığımız strateji əhəmiyyətli 932 saylı yüksəklik mütləq ələ keçirilməli idi. Bizim digər bölmələrin təminat yollarına düşmən həmin yüksəklikdən nəzarət edirdi. Xocavənd rayonundakı Azıx mağarasından cənub-şərqdə yerləşən bu yüksəkliyə yiyələnmək Şuşaya doğru hücum əməliyyatının təşkili üçün də vacib idi. Yüksəkliyin ətrafına çatanadək işğalçılar bizi aşkarlaya bilmədilər. Çətin döyüş olsa da, yüksəkliyi ələ keçirdik. Düşmən xeyli sayda canlı qüvvə itirdi, onların arasında yüksək rütbəli zabitlər də vardı. Təcavüzkarın avtomobil və zirehli texnikalarını, müxtəlif növ silah-sursatını qənimət götürdük. Hətta bir “KamAz” avtomobili sursatla dolu idi. Yüksəkliyi itirdikdən sonra ermənilər oranı topladılar və tanklardan atəşə tutdular. Mərmilərdən biri Emilin və digər döyüşçü Etiramın bir neçə metrliyində partladı, aldığı qəlpə yaralarından o, oktyabrın 22-də şəhid oldu, silahdaşı isə həmin yerdən yaralı olaraq çıxarıldı. Şəhidin nəşini mən və 4 nəfər hərbi qulluqçu yaxınlıqdakı kənd istiqamətində təxliyyə etdik”.

Vətən müharibəsi iştirakçısı, 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun snayper yarımqrupunun heyət nəfəri çavuş Etiram Orucov: “Minaaxtaran kimi öndə gedirdi, döyüşçülərə yol açırdı, düşmənə pusqu quranda da peşə bacarığından məharətlə istifadə edirdi. Ağır döyüşlərdə dəfələrlə mətinlik göstərdi. 932 saylı yüksəklik işğaldan azad edildikdən sonra ikimiz də orada növbə ilə səngər qazırdıq. Birdən aramıza mərmi düşərək partladı, çənəmin altından çoxlu qan axırdı, qırağa çəkilərək yerimi dəyişdim. Emil qolunu tutub kömək çağırdı. Kömək gələnədək o, çox qan itirmişdi. Təxliyyə avtomobili o əraziyə gələ bilmirdi. Emilin həyatını xilas etmək



mümkün olmadı”.

Şəhid hərbi qulluqçumuzun nəşi oktyabrın 24-də ailəsinə gətirilib və həmin gün Qorağan kəndinin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15, 25, 29 dekabr 2020-ci il, 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş E.Fətəliyev ölümündən sonra “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib.

Emilin qardaşı Qurban Müdafiə Nazirliyinin hərbi qulluqçusu kimi 44 günlük Vətən müharibəsində iştirak edib. Hazırda o, Qax Rayon Polis Şöbəsinin Post-Patrul Xidməti Bölüyünün polis baş serjantı olaraq ictimai asayişin və təhlükəsizliyin keşiyində dayanır.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

---

# İnsan hüquq və azadlıqlarının keşiyində...




Azərbaycan qanunvericiliyində insan və vətəndaş hüquq və azadlıqlarının təməlləri ulu öndər Heydər Əliyevin siyasi iradəsinin təzahürü kimi atıldı. Belə ki, insan hüquqları amilini öz əməli fəaliyyətində hər zaman əsas meyar kimi rəhbər tutan ümummilli lider 1998-ci il fevralın 22-də “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərman, 1998-ci il 18 iyun tarixində isə “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam imzaladı.

Azərbaycanda insan hüquqları üzrə səlahiyyətli müvəkkil təsisatının yaradılması ilə bağlı müddəalar da ilk dəfə olaraq məhz bu sənədlərdə öz əksini tapdı və bunun ardınca ulu öndərin təşəbbüsü ilə “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” 2001-ci il 28 dekabr tarixli Konstitusiya Qanunu qəbul olundu.

Ulu öndərin rəhbərliyi ilə Konstitusiyamızda bu məsələlərlə bağlı maddələrin yer alması insan haqlarını və vətəndaş azadlıqlarının qorunmasını dövlətin məqsədlərindən birinə çevirdi.

İlk strateji sənəd olan bu Dövlət Proqramının təsdiq edilməsindən artıq 25 il ötür.

Hər il mayın 18-dən iyunun 18-ə kimi ölkəmizdə elan edilən “İnsan Hüquqları Aylığı” sosial-hüquqi statusundan asılı olmayaraq hər kəsin - şəhid ailələrinin, müharibə iştirakçılarının, əlilliyi olan şəxslərin, uşaqların, ahılların, qaçqınların, keçmiş məcburi köçkünlərin, miqrantların və əhalinin digər həssas qruplarının hüquqlarının müdafiəsi və təbliği sahəsində fəaliyyəti gücləndirmək, əldə olunan uğurlar barədə ictimaiyyəti məlumatlandırmaq, qarşıda duran vəzifələri müəyyən etmək, cəmiyyətdə hüquq düşüncəsini və mədəniyyətini inkişaf etdirmək, ayrı-seçkiliyə, korrupsiyaya, zorakılığa, zərərli vərdişlərə qarşı mübarizənin zəruriliyini diqqətə çatdırmaq məqsədinə xidmət edir.

Qeyd edək ki, “İnsan Hüquqları Aylığı” çərçivəsində daxili işlər orqanlarında tədbirlər keçirilir.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

---

# “KİBERTƏHLÜKƏSİZLİK FORUM”U KEÇİRİLİB




Bu günlərdə kibertəhlükəsizliyin təmini, yeni texnoloji təhdidlərə qarşı mübarizə üsullarının tətbiqi, öyrənilməsi, eləcə də bu sahədə milli peşəkar kadrların hazırlanması üzrə “II Milli Kibertəhlükəsizlik Forum”u keçirilib. “Baku Marriott Boulevard Hotel”də baş tutan, 350-dən çox mütəxəssisin iştirak etdiyi forumla bağlı təəssüratlarını **DİN-in Polis Akademiyasının “DİO-da əməliyyat-axtarış fəaliyyəti” kafedrasının rəisi, polis polkovnik-leytenantı Orxan Məmmədov** “Polis”lə bölüşüb: “İşgüzar və səmərəli şəkildə keçən forumda ümumilikdə 5 panel - milli kibertəhlükəsizlik ekosistemi, Türk Dövlətləri Təşkilatı kontekstində kibertəhlükəsizlik, kritik informasiya infrastrukturunun təhlükəsizliyi, kibertəhlükəsizlik həlləri və startaplar, kibertəhlükəsizlik sahəsində təhsil, insan resursları və maarifləndirmə mövzuları ətrafında müzakirələr aparıldı. Yerli və xarici ekspertlərin mövzularla bağlı fikirləri öyrənildi.

Bu ilin əvvəlindən Polis Akademiyasında Əməliyyat-axtarış fəaliyyəti kafedrasının nəzdində daxili işlər orqanlarında xüsusi texnika və kibertəhlükəsizlik fəaliyyəti fənni tədris olunur. Bu sahədə yetişən kadrların ixtisasartırma hazırlığının yüksəldilməsi maraq dairəmizə daxil olduğu üçün insan resursları və maarifləndirmə paneli üzrə aparılan müzakirələr daha çox diqqətimizi çəkdi”,-deyə o, qəzetimizə müsahibəsində bildirib.

*Teymur Əlizadə,*
*polis mayoru*

---

# Davamlı mübarizə hədəfə yaxınlaşdırır



Sabunçu Rayon Polis İdarəsinin Narkotiklərlə Mübarizə Bölməsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat zamanı Nardaran qəsəbəsində narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olan Mirzədadaş Cəlilov saxlanılıb. Onun yaşadığı evin həyətinə baxış zamanı xüsusi qulluq edərək yetişdirdiyi 97 ədəd çətənə kolu, eləcə də 2 kiloqram 200 qram marixuana aşkar edilib.

Bölmə əməkdaşlarının Bakıxanov qəsəbəsində həyata keçirdikləri növbəti əməliyyat zamanı isə narkotik maddələrin satışı ilə məşğul olan, əvvəllər məhkum olunmuş Vüqar Rəhimov saxlanılıb. Bu şəxsin üzərindən və evindən 2 kiloqram 500 qram marixuana aşkar olunub.

Qeyd edək ki, may ayı ərzində Sabunçu Rayon Polis İdarəsinin Narkotiklərlə Mübarizə Bölməsinin əməkdaşlarının rayon ərazisində həyata keçirdikləri əməliyyatlar zamanı narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan ümumilikdə 75 nəfər saxlanılıb. Həmin şəxslərin hər biri barəsində İdarənin İstintaq Şöbəsində Cinayət işləri başlanılıb.

Yeri gəlmişkən, cari ilin əvvəlindən Sabunçu rayonunda polis əməkdaşlarının keçirdikləri əməliyyatlar zamanı ümumilikdə 45 kiloqram müxtəlif xassəli narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb.

# POLİS AKADEMİYASINA DOĞRU...

## Abituriyentlər necə müayinə olunur?

Polis Akademiyasına qəbul üçün sənəd verən abituriyentlər “çətin və şərəfli yol” dediyimiz polis həyatının ilk sınaqlarından keçirlər. İndi onların növbəti duracağı DİN Tibb İdarəsinin xüsusi həkim komissiyasının müayinə otaqlarıdır.

İrəlidə hələ Dövlət İmtahan Mərkəzinin rəqabətli qəbul imtahanı da var.

Çox güman, elə buna görə idi ki, biz İdarənin dəhlizlərindən keçib gedəndə bir-birinin ardına düzülüb həkim növbəsi gözləyən gənclərin bəzilərinin simasından narahatlıq hissləri “boylanırdı”.

Polis zabiti olmaq istəyən gənclərin sağlamlığının yoxlanılması, ümumən, daxili işlər orqanlarında xidmətə qəbul olunanların tibbi müayinələrinin əhəmiyyəti barədə **Tibb İdarəsinin rəisi Mahmud Yusifovla** fikirlərimizi bölüşüb yenidən geriyə, müayinə ediləcək gənclərin yanına qayıdırıq.

**Diqqətimizi xüsusi həkim komissiyasının sədri, tibb xidməti polkovnik-leytenantı İlkin Mirəliyev çəkir.** O, abituriyentlərin sənədlərini yoxlayır, boylarını ölçüb növbəti həkimə yönəldirdi. İşində bir qədər fasilə yaratmış olsaq da, cavab axtardığımız sualları “yağdırmaq” fürsətini qaçırmırıq.

Həmsöhbətimiz deyir ki, mayın 1-dən başlayan tibbi müayinə prosedurunu abituriyentlər iyunun sonunadək başa vurmalıdırlar. Gənclər cərrah, həkim-terapevt, nevropotoloq, göz, qulaq müayinələri kimi ilkin yoxlanışları Tibb İdarəsində keçirlər. Sonra isə Nazirliyin Hospitalında analizlər, rentgen, uzi müayinələri aparılır.

Müayinəyə gələnlərin təxminən 20 faizində əsasən göz xəstəlikləri, zəif görmələrə rast gəlindiyini deyən komissiyanın sədri bunun səbəblərini onunla izah edir ki, Akademiyaya qəbul olmaq istəyən abituriyentlər yüksək bal toplamaq üçün çox oxumalı olurlar. Bu da gözlərin müəyyən qədər zəifləməsinə səbəb olur. Əgər bu zəiflik, komissiyanın istinad etdiyi əmrin tələblərində göstərildiyi kimi, hər bir gözün ən azı 80 faiz görmə imkanını keçirsə, onda bu abituriyent üçün pis xəbərdir. Çünki, belə diaqnozlar, adətən, “müvəqqəti yararsız” və yaxud “müalicəyədək yararsız” rəy alınması ilə nəticələnir.

Komissiya bir sıra xəstəliklərlə bağlı da eyni rəy verə bilər. Məsələn, şəxsin çəki problemi varsa, müəyyən müddət ərzində arıqlaya və ya çəki artıra bilər. Yaxud hepatit B xəstəliyi olan adamın müalicədən 6 ay sonra yenidən xüsusi həkim komissiyasından keçmək üçün müraciət etmək imkanı var. Ancaq, bu cür müraciətlər bir qayda olaraq, yalnız xidmətə qəbulu həyata keçirən polis orqanının vasitəsi ilə mümkün olur.







Məlum pandemiya dövründə fəaliyyətini dayandırmayan komissiyaya edilən müraciətlərin sayının illərə görə dəyişdiyini deyən İ.Mirəliyev builki dəqiq sayın mandatı bitirib gələnlərdən sonra bəlli olacağını, bununla belə təxminən mindən çox abituriyent müayinə ediləcəklərini ehtimal edir. Ancaq, bu da işin tam həcmi deyil, çünki daxili işlər orqanlarında xidmətə qəbul edilən istənilən şəxsin, hətta mülki əməkdaşların belə yolu Tibb İdarəsinin xüsusi həkim komissiyasından başlayır.

Sədrlə söhbətimizi yekunlaşdırıb qonşu otağa yaxınlaşanda **otolarinqoloq, tibb xidməti kapitanı Sahilə Quliyeva** polis olmaq arzusu ilə gələn gənci müayinə edirdi. Üzündəki xəfif təbəssümü əskik etmədən deyir ki, gənclərimiz sap-sağlamdır, bəzən isə xroniki tanzilit və diş problemləri olanlarla rastlaşır. Onun sözlərinə görə, ağır eşitmələr də cavanlaşıb. Əvvəllər ağırəşitmə 60 yaşın xəstəliyi hesab olunurdusa, hazırda 17-18 yaşlı gənclərdə aşkar olunur. Elə bir neçə gün əvvəl bir abituriyent eyni diaqnozla komissiyadan keçə bilməyib.

Burada gələcək polislərin məntiqi mühakimə və psixoloji sağlamlıq testləri də aparılır. İmtahanın gedişinə nəzarət edən **İdarənin əməkdaşı Aysel Verdiyevanın** sözlərinə görə, Akademiyaya sənəd verənlər testləri yaxşı yazırlar. Bəzən psixoloji testlərdə təsdiq cümlələrini sual cümlələri kimi cavabladırılma halları da olur. Bu cür texniki səhvlər olmasın deyə, onlara əvvəlcədən qaydalar ətraflı izah edilir.

Həmsöhbət olduğumuz abituriyentlər də komissiyanın fəaliyyətindən razılıqlarını bildirdilər. Emin Rüstəmli qeydiyyatdan keçib, özü haqqında anketi doldururdu. Artıq müayinələri başlayacaqdı. Deyir, prosedurları çox rahatlıqla keçirlər. Akademiyaya qəbul olmaq üçün də kifayət qədər hazırlıqlı olduğunu düşünür.

Zərifə Əliyeva adına 3 nömrəli tam orta məktəbin məzunu Nicat Ceyhunov təhsilini əla qiymətlərlə başa vurduğuna və sınaq imtahanlarında da yüksək bal topladığını görə özünə əmin danışdı. Müayinələri bitmək üzrə idi, səhhətində hər hansı problem aşkar olunmamışdı və yekun rəyi götürəcəkdi. O, polisin işini şərəfli peşə hesab etdiyinə görə Akademiyaya can atdığını deyir. Həm də bu peşə onun ailə məsləyi sayıla bilər, çünki babası polis olub, əmisi ilə dayısı isə hazırda xidmət edirlər.

İdarənin binasını tərk edəndə qapının qarşısında bir qrup gənc dayanıb içəri çağırılacaqları anı gözləyirdilər. Onlardan bəzilərinin pilləkənlərə atacaqları addımlar həm də polis həyatına atacaqları ilk addımlar olacaqdı...

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

---

# Gəncliyimizi - gələcəyimizi qoruyuruq

**Paytaxt və bölgələrdə polis əməkdaşları gəncləri zərərli vərdişlərdən, xüsusilə narkomaniyadan qorumaq məqsədilə maarifləndirici görüşləri davam etdirirlər.**

Növbəti belə tədbir Səbail Rayon Polis İdarəsinin təşkilatçılığı ilə 6, 51, 203 və 236 nömrəli tam orta məktəblərdə keçirilib. Görüşlərdə çıxış edən RPŞ-nin əməkdaşları narkomaniyanın cəmiyyət üçün yaratdığı problemlərdən, insan sağlamlığına ziyanından danışıblar. Həmkarlarımız narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində həyata keçirilən uğurlu əməliyyat-axtarış tədbirlərini diqqətə çatdırıb, həmçinin, narkotiklərin satışı, alışı və istifadəsi ilə məşğul olanların məsuliyyətə cəlb olunmaları üçün birgə səylərin vacibliyini önə çəkiblər.

Mingəçevir şəhər 1 saylı orta məktəbdə şagirdlər, valideynlər, eləcə də pedaqoji heyət qarşısında çıxış edən ŞPŞ-nin rəisi, polis polkovniki Ədalət Əliyev narkotik vasitələrin, psixotrop maddələrin, o cümlədən onların prekursorlarının yaratdığı fəsadlarla yanaşı, narkomaniyanın mənəvi və əxlaqi dəyərlərə ciddi zərbə vurduğunu bildirib. O, sağlam gəncliyin və etibarlı gələcəyin qurulması baxımından belə maarifləndirici görüşlərin davamlı təşkilinin zəruriliyindən də bəhs edib.

Antinarkotik təbliğatı çərçivəsində Lerik rayon Heydər Əliyev Mərkəzində Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə "Gələcəyimizi sağlam gənclərlə quraq!" mövzusunda keçirilən maarifləndirici tədbirdə polis əməkdaşları, məktəbin müəllim və yuxarı sinif şagirdləri, eləcə də valideynlər iştirak ediblər.

Görüşdə çıxış edən RPŞ-nin rəis müavini, polis polkovnik-leytenantı Müşviq Eyvazov və digər çıxışçılar bəşəriyyətin ən ağrılı problemlərindən olan, cəmiyyətin ciddi bəlasına, milli-mənəvi təhlükə mənbəyinə çevrilən narkomaniyanın dinindən, irqindən, milliyyətindən, sosial vəziyyətindən asılı olmayaraq hamı üçün eyni dərəcəli təhlükə olduğunu diqqətə çatdırıblar.

Görüşdə həmçinin, erkən nikah mövzusuna da toxunulub, yeniyetmə vaxtlarında qızların ailə qurmasının onların sağlamlığı üçün ciddi təhlükə törətdiyi qeyd edilib.

Tədbirlərin sonunda məktəbliləri maraqlandıran suallar cavablandırılıb, narkomaniyanın fəsadlarından bəhs edən sosial çarxlar nümayiş etdirilib.









---

# Əməkdaşımız beynəlxalq tədbirdə iştirak edib



Bu günlərdə Türkiyənin Jandarma və Sahil Güvənlik Akademiyasında "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması ilə bağlı beynəlxalq sertifikat proqramı" çərçivəsində keçirilən tədbirdə DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili şöbəsinin rəis müavini, polis mayoru İmran Əliyev iştirak edib.

Tədbirdə Türkiyənin bu sahədə mövcud qanunvericilik aktları, "Kades" proqramı, eləcə də beynəlxalq normativ hüquqi aktlar və preventiv tədbirlər barədə məlumatlar verilib.

Türkiyə Respublikası da daxil olmaqla 10 ölkədən qatılan iştirakçılara sertifikatlar təqdim olunub.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

---

# Polis peşəsindən danışdılar...



**Binəqədi rayonunda Rayon Gənclər Evinin “Peşə sirləri” layihəsi çərçivəsində gənclərlə polis əməkdaşlarının görüşü təşkil olunub.**

Tədbirə dəvət olunan Bakı şəhər BPİ-nin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova və Bakı şəhər BPİ DYPİ-nin inspektoru, polis kapitanı Pərvanə Muradova polis peşəsinin xüsusiyyətləri barədə iştirakçılara məlumat veriblər.

Polis olmaq istəyən hər bir sağlam, vətənpərvər, bilikli gəncin daxili işlər orqanlarının sıralarına qoşulmaq imkanından bəhs edən həmkarlarımız polisin şanlı tarixindən, cinayətkarlığa qarşı əldə edilən nailiyyətlərindən danışıblar. Qadın polislərin cinayətkarlıqla mübarizədəki rollarına da xüsusilə toxunulub.

Görüş zamanı həmçinin, erkən nikah, uşaq əməyinin istismarı və uşaqlara qarşı zorakılıq halları ilə bağlı polisin qətiyyətli mübarizəsinə diqqət çəkilib, suallar cavablandırılıb.



*“Polis”*




# Beynəlxalq təcrübə öyrənilir

**Bu günlərdə Özbəkistan Respublikası DİN-in Polis Akademiyasında “Məhkəmə ekspertizası sahəsinin müasir təhdidlərə uyğunluğu və qabaqcıl nailiyyətlərə əsaslanan inkişaf perspektivləri” adlı beynəlxalq elmi-praktik konfrans keçirilib. Konfransda Azərbaycan Respublikası DİN-in Kriminalistik Tədqiqatlar İdarəsinin rəis müavini, polis baş leytenantı Fikrət Əliyev, həmin İdarənin şöbə rəisi, polis polkovniki Ağasadıq Əliyev və Polis Akademiyasının Kriminalistika kafedrasının rəisi, polis polkovnik-leytenantı Orxan Yaqublu iştirak ediblər.**

Tədbirə Belarus Respublikası Dövlət Məhkəmə Ekspertizası Komitəsinin, Qazaxıstan Respublikası DİN-in M.Bukenbayev adına Aktobe hüquq institutunun, Qazaxıstan Respublikası DİN-in Əməliyyat və Məhkəmə Ekspertizası İdarəsinin, Rusiya Federasiyası DİN-in Kriminalistika və Məhkəmə Ekspertizası Mərkəzinin, Qırğızıstan Respublikası Daxili İşlər Nazirliyinin, BƏƏ-nin və Səudiyyə Ərəbistanının Daxili İşlər Nazirliyinin və bir sıra beynəlxalq təşkilatlarının nümayəndələri də qatılıb.



Konfransı giriş sözü ilə açan Özbəkistan Respublikası DİN-in İnformasiya texnologiyaları üzrə nazir müavini daxili işlər orqanlarının fəaliyyətində müasir kriminalistikanın önəminə diqqət çəkib, cinayətkarlığa qarşı mübarizənin aparılmasında məhkəmə ekspertizasının rolundan və imkanlarından danışıb.

Sonra qonaqlar Özbəkistan Respublikası DİN-in Polis Akademiyasının tədris auditoriyaları, kriminalistik laborotoriyalar və xüsusi vasitələrlə tanış olublar.

**Konfrans iştirakçıları Səmərqənd vilayəti Daxili İşlər İdarəsinin Təhlükəsizlik Mərkəzində biometrik eyniləşdirmə, süni intellekt və məlumatların rəqəmsal axtarış sistemi ilə tanış olub, həmçinin hadisə yerinə baxış və maddi sübutların aşkar edilməsi, keyfiyyətli toplanılması üzrə istintaq-əməliyyat qrupları üçün təlimdə iştirak ediblər.**

**Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti ulu öndər Heydər Əliyevin Daşkənddəki abidəsini ziyarət edib, “Azərbaycan Mədəniyyət Evi”nə baş çəkiblər.**

*“Polis”*




2023-cü ilin II yarısı üçün “POLİS”ə, öz qəzetinizə abunə olmağa tələsin!


## Mükafatlı sual rubrikası

**Bu oyunun adı Xalq yazıçısı İlyas Əfəndiyevin əsərlərinin birində çəkilir. Ona tərəkəmələrin “dava”sı da deyirlər. Söhbət hansı əsərdən və oyundan gedir?**

**Vatsap: +99455-875-16-39**

# İDMAN XRONİKASI

## Həmkarımız yenə çempiondur



Azərbaycan Strongman Federasiyasının təşkilatçılığı ilə keçirilən streetliftinq və armliftinq idman hərəkətləri üzrə respublika çempionatında Bakı şəhər BPİ DYPİ-nin əməkdaşı birinci yerə çıxıb.

Su İdmanı Sarayında keçirilən yarışa 100-ə yaxın idmançı qatılıb.

Bakı şəhər BPİ DYPİ YPXA-nın Növbətçi Hissəsinin baş növbətçi-inspektoru, polis baş leytenantı Babək Bağırlı idmançılar arasında 110 kiloqram çəki dərəcəsində gücünü sınayıb. Turnikdə dartınmada 52, paralel qollarda hərəkətlər üzrə 85 kiloqram çəkinin öhdəsindən gələn həmkarımız adını növbəti dəfə qaliblərin siyahısına yazdırıb.

Qeyd edək ki, polis baş leytenantı B.Bağırlı streetliftinq üzrə hərəkətlərdə 2021-ci ildə birinci, ötən il isə ikinci yerə layıq görülüb. Bu il isə hər iki növ üzrə çempion adını qazanıb.

*“Polis”*

## Göytəpə Polis Bölməsi qalib oldu



Cəlilabad Rayon Polis Şöbəsinin əməkdaşları arasında ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş futzal yarışı təşkil olunub.

Olimpiya İdman Kompleksində keçirilən yarışdan əvvəl ümummilli liderin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi yad edilib. Cəlilabad RPŞ-nin rəisi, polis polkovniki Polad Qarayev xalqımızın sülh və əmin-amanlıq, sabitlik şəraitində yaşamasında, eləcə də ölkəmizdə idmanın inkişafında, gənc nəslin sağlam ruhda yetişməsində ulu öndərin müstəsna xidmətlərindən danışıb.

Sonra yarışa start verilib. Şöbə əməkdaşlarından ibarət komandalar qalib adı uğrunda da mübarizə aparıblar. Bir neçə gün davam edən futzal yarışının qalibi Göytəpə PB-nin komandası olub.


# XƏZRİ sizi gözləyir




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan “Xəzri” İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1-ci mövsüm üzrə 01 iyun - 15 sentyabr 2023-cü il tarixələrə qiymətləri**

**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

Qeyd: **1.** “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında” Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

**2.** Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

**3.** Bir günlük xərc tək polis əməkdaşı üçün 36,25 manat (iki nəfərlik nömrəni tək tutduqda 57,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 108,75 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 87,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 145,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 175,00 manat təşkil edir.

**4.** 6 yaşadək uşaqların qalması ödənişsizdir.

**5.** Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, su attraksionundan, trenajorlardan, mini futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. “Koroğlu” metrostansiyasından Mərkəzə 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+994 12) 554-47-60;**
**Mobil telefon: (+994 50) 291-15-51; (+994 55) 291-15-51;**
**Faks: (+994 12) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**Veb-sayt: www.khazri.mia.gov.az**
**E-poçt: info@khazri.mia.gov.az**

| 01 iyun - 15 sentyabr 2023-cü il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 290 manat, bir nəfər tək qaldıqda 230 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 36,25 manat | 57,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 72,50 manat | 115 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 145 manat | 230 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 manat | |


# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

Bərdə şəhər sakinləri, əvvəllər məhkum olunmuş İmdad Abdullayev və Tural Həsənovun narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olması barədə **Bərdə RPŞ-yə** daxil olmuş məlumat əsasında əməliyyat tədbiri keçirib. Onlar saxlanılarkən İ.Abdullayev üzərində gəzdirdiyi bıçaqla polis əməkdaşlarına müqavimət göstərib.

Polis əməkdaşları tərəfindən həyat və sağlamlıq üçün real təhlükə yarandığından xidməti tabel silahı tətbiq edilib. Onlardan biri ayağından xəsarət alaraq xəstəxanaya yerləşdirilib, digəri isə saxlanılıb.

Onlara məxsus çantadan ümumi çəkisi 5 kq 140 qr narkotik maddə olan heroin, 300 qram marixuna və bir ədəd bıçaq götürülüb.

◆◆◆

**Pirallahı Rayon Polis İdarəsi** əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində iyunun 2-də Gürgan qəsəbəsindəki evlərin birindən 450 manatı və 10.000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri K.Əliyev, N.Bayramlı və M.İsmayılov müəyyən olunaraq saxlanılıblar.


POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9860

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik